

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 95 (24.232)

*27 may 2023-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Moskvada Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Zirvə görüşü olub



Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli Zirvə görüşü olub.

Zirvə görüşündə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu. Hörmətli Nikol Vovayeviç.

Hörmətli həmkarlar, dostlar.

Biz növbəti görüşümüzün keçirilməsinə dair təklifə operativ reaksiya verdiyiniz üçün minnətdarıq və ümid edirəm ki, bu bizim artıq çoxdan danışdığımız bəzi məsələlərin praktik həllində yaxşı müqəddimə olacaq.

Məhz bizim formatda bir çox məsələlərə dair uğur əldə etmək mümkün olub. 2020-ci ilin payızında təkcə hərbi əməliyyatlar dayanmayıb, sonra iqtisadi və nəqliyyat kommunikasiyalarının blokadasının aradan qaldırılması, sərhədlərin delimitasiyası üzrə işlərə başlanılıb.

Bu vaxt ərzində bir çox hadisələr baş verib, mən onların hər biri üzərində dayanmayacağam, detallara varmayacağam. Zənnimcə, hələ də, ümumilikdə, kifayət qədər çətinliklərin və problemlərin olmasına baxmayaraq, hər halda vəziyyət nizamlanma istiqamətində inkişaf edir. Bu istiqamətlərdən biri nəqliyyat kommunikasiyaları ilə bağlı aparılan işdir. Bax indi biz üzbəüz üçlükdə kifayət qədər ətraflı şəkildə bu barədə danışdıq və hələ də tənzimlənməmiş məsələlər qalır. Lakin zənnimcə, biz bu barədə həm Azərbaycan tərəfdən, həm də Ermənistan tərəfdən olan həmkarlarla danışdıq. Bu məsələlər sırf texniki xarakter daşıyır.

Biz bu mövzunu ətraflı müzakirə etdik. Məsələ terminologiyadadır. Əlbəttə, bu terminlərin arxasında reallıqların və hadisələrin dəqiq qavranılması dayanır. Onlar müvafiq sənədlərin imzalanmasından sonra gəlir. Lakin fikrimcə, bizim hər üçümüzün nöqteyi-nəzərindən, – mən özümü, Ermənistanın baş nazirini və Azərbaycanın Prezidentini nəzərdə tuturam, – bunlar aradan qaldırılması mümkün olan manеələrdir. Əslində, bunlar sırf texniki məsələlərdir. Ona görə də biz qərara aldıq ki, yaxın vaxtlarda, bir həftədən sonra, – indi həmkarlarımdan bu tarixi razılaşdırmağı xahiş edirəm, – Rusiya, Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri görüşəcəklər. Onlar belə demək mümkünsə, hələ tənzimlənməmiş məsələləri həll edəcəklər. Mənə elə gəlir ki, bu, yaxşı razılaşmadır və indiyədək həll olunmamış məsələlərin çözülməsinə ümid yaradır.

Vaxta gəldikdə, biz bir həftədən sonra görüş barədə razılığa gəldik. Bu gün cümə axşamıdır. Ermənistan, yaxud Azərbaycan nümayəndə heyətlərinin hər hansı təklifi varmı? Çünki həmkarlar bu barədə öz aralarında razılaşmalıdırlar. Bir həftədən sonra normaldır?

**Baş nazir Nikol Paşinyan:** – Bəli.

**Prezident Vladimir Putin:** – İlham Heydər oğlu?

**Prezident İlham Əliyev:** – Bəli.

**Prezident Vladimir Putin:** – Mətbuat nümayəndələri çox sağ olsunlar. Biz bir az qapalı rejimdə işləyəcəyik.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri mayın 25-də başa çatıb.

**AZƏRTAC**

## “PAŞA Bank” Naxçıvanda yeni biznes üfüqlərini müzakirə edib





Ölkənin aparıcı maliyyə institutu və real sektorun aparıcı qüvvəsi olan “PAŞA Bank”ın geniş tərkibdə nümayəndə heyətinin Naxçıvana səfəri başlayıb. Səfər çərçivəsində Naxçıvan Biznes Mərkəzində “Naxçıvanda yeni biznes üfüqləri: sahibkarlıq potensialı və inkişaf perspektivləri” mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, Ümummilli Liderimizin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra iştirakçılar Naxçıvan Biznes Mərkəzində nümayiş etdirilən Naxçıvan məhsulları və sənətkarlıq nümunələri ilə tanış olublar.

“Naxçıvanda yeni biznes üfüqləri: sahibkarlıq potensialı və inkişaf perspektivləri” konfransına Naxçıvan rəsmiləri və sahibkarları, eləcə də “PAŞA Bank”ın müştəriləri də daxil olmaqla, 120-dən çox iştirakçı, o cümlədən investorlar qatılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Naxçıvanda sahibkarlar və investorlar üçün yaradılan yeni imkanlardan danışıb. Bildirib ki, bu il Azərbaycan üçün əlamətdar ildir. Ölkə Prezidentinin Sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan olunub. Bu əlamətdar ildə Naxçıvanda digər sahələrlə yanaşı, iqtisadiyyat və sahibkarlıq sahələrində də canlanma müşahidə olunur. Şəffaf mühitin formalaşdırılması, kölgə iqtisadiyyatı, monopoliya və inhisarçılığın aradan qaldırılması məqsədilə aparılan islahatlar nəticəsində iqtisadi artım təmin edilib.

Fuad Nəcəfli vurğulayıb ki, Naxçıvanda azad biznes mühiti formalaşır. Zəngəzur dəhlizinin reallaşdırılması Naxçıvanın logistika



mərkəzi kimi imkanlarını daha da genişləndirir. Türkiyə ilə yeganə quru yolu Naxçıvan üçün Zəngəzur dəhlizinin perspektivlərini daha da artırır. Hazırda “Orqanik Naxçıvan” brendinin formalaşdırılması, təbii məhsulların istehsalı, emalı, bazara yol tapması və ixracının təmin olunması, iri sənaye müəssisələrinin yaradılması, nəticədə, yeni iş yerlərinin açılması ilə əhalinin məşğulluq imkanlarının daha da artırılması əsas hədəflər sırasındadır. Naxçıvan olduqca yüksək dağ-mədən sənayesi, duz və digər faydalı qazıntı yataqlarına, həmçinin günəş enerjisi potensialına malikdir. Muxtar respublikada istehsal olunacaq enerji daxili tələbatı ödəməklə yanaşı, böyük ixrac imkanlarına da malikdir. Bütün bunlar sahibkarlar və investorlar üçün yeni üfüqlər açır. Bu istiqamətdə görülən işlər çərçivəsində Naxçıvanda mühüm enerji layihələri reallaşdırılacaq, yeni iş yerləri açılacaq. Həmçinin sahibkarlığa və sahibkarlara dəstək mexanizmi prioritet sahə kimi diqqətdə saxlanılacaq. “PAŞA Bank”ın dəstəyi ilə keçirilən bugünkü konfrans da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

“PAŞA Bank”ın idarə heyətinin sədr müavini Bəhruz Nağıyev tədbirin təşkil edilməsində əsas məqsədin sektorlararası dialoqun yaradılmasına kömək etmək, əlçatan və effektiv maliyyələşmə mexanizmlərini nəzərdən keçirmək olduğunu bildirib.

Bəhruz Nağıyev muxtar respublikanın hər bir sahə üzrə mövcud potensialı barədə danışıb. Vurğulayıb ki, Naxçıvanda dağ-mədən sənayesi, kənd təsərrüfatı, ticarət, turizm və digər sahələrin inkişafı üçün böyük potensial, eyni zamanda müasir infrastruktur var. Naxçıvan ərazisindən keçən nəqliyyat və enerji dəhlizləri, zəngin təbii resurslar, dağ-mədən sənayesi, bölgənin ticarət və turizm potensialı, eləcə də əlverişli infrastrukturun mövcudluğu buraya nəinki yerli, xarici investorları da cəlb etmək iqtidarındadır. Məqsəd bu sahələrdə dəyərləndirmələr aparmaqla ehtiyac meyarlarını təyin etmək, maliyyə dəstəyi göstərməklə iqtisadi inkişafa təkan verməkdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev bu ilin ötən dövrünün Naxçıvanda iqtisadi artım tempini

*Ardı 2-ci səhifədə*

rəqəmlərlə ifadə edərək diqqətə çatdırıb ki, sənayedə zəruri xammalın və enerji resurslarının fasiləsiz təmin olunması məqsədilə cari ilin 4 ayı ərzində 62 sənaye və kənd təsərrüfatı təyinatlı dövlət və özəl müəssisələr fəaliyyətə başlayıb, 33 yeni layihənin yaradılması üzrə işlər aparılır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank, kredit təşkilatları və Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına, ümumilikdə, 114 milyon 960 min 100 manat kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,7 faiz və ya 19 milyon 53 min manat çoxdur.

Qeyd olunub ki, son dövrlərdə ödənilən verginin həcmində və vergi daxilolmalarında özəl sektorun payının artması xüsusi əhəmiyyət kəsb edir. Bu, vergi məbləğlərinin, vergi dərəcələrinin artırılması hesabına deyil, məhz vergiödəyicilərinin dairəsinin genişləndirilməsi, sayının artması hesabına formalaşıb. 2023-cü ilin 4 ayında ötən ilin eyni dövrü ilə müqayisədə vergi daxilolmaları üzrə 15 milyon 17 min manat və ya 41,7 faiz artım olub. Bu artım yeni qeydiyyatdan keçmiş vergiödəyicilərinin, obyektlərin, əlavə dəyər vergisi ödəyicilərinin sayında və digər sahələrdə də izlənilməkdədir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində özəl sektorun Ümumi Daxili Məhsuldakı payı 88 faizi ötüb.

İqtisadiyyat naziri Naxçıvanda sərbəst və şəffaf biznes mühitinin yaradılması, investisiya qoyuluşlarının, həmçinin vergi, satınalma proseslərinin şəffaflaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinin sahibkarların Naxçıvana marağını artırdığını bildirib, Naxçıvanın qapılarının yerli və xarici investorların üzünə açıq olduğunu vurğulayıb.

Konfransda Kiçik və Orta Bizneslərin İnkişafı Agentliyinin, Sahibkarlığın İnkişafı Fondunun, İpoteka və Kredit Zəmanəti Fondunun, Aqrar Kredit və İnkişaf Agentliyinin nümayəndələri çıxışları zamanı sahibkarları maraqlandıran məqamlara toxunublar.

Konfrans çərçivəsində keçirilən müzakirə panelində maliyyə əlçatanlığının təmin olunması istiqamətində diskussiya aparılıb və aidiyyəti qurumlar tərəfindən sahibkarları və investorları maraqlandıran məqamlara aydınlıq gətirilib.

✍ Səbuhi HƏSƏNOV



# Müstəqillik Ulu Öndərimizin müqəddəs əmanəti, xalqımızın ən böyük sərvətidir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 15-də “Müstəqillik Günü haqqında” Azərbaycan Respublikası Qanununu təsdiq etmiş, həmin Qanuna əsasən mayın 28-i ölkəmizdə Müstəqillik Günü elan edilmişdir. Qanunda da qeyd olunduğu kimi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış, 1991-ci il oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuş, bu zaman 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə istinad edilmişdir. Bu baxımdan ölkə Prezidentinin imzaladığı müvafiq qanunda 28 may tarixi mahiyyət və məzmununa uyğun olaraq dəqiq ifadə edilmişdir.*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: ***“Müstəqillik bir bəyanatla olmur. Müstəqillik əməli işlə olur. Əməli iş də ondan ibarətdir ki, biz özümüz öz ölkəmizin, öz torpağımızın, millətimizin, taleyimizin sahibi olmalıyıq”.***

Qeyd olunmalıdır ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. Xalq özünün istiqlal arzularını nəsildən-nəslə ötürdü. 1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etdi, həm iqtisadi, həm də sosial sahədə böyük uğurlar qazandı. Görkəmli dövlət xadiminin rəhbərliyi altında həyata keçirilmiş tədbirlər ölkəmizin müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratdı. Azərbaycan ötən əsrin sonlarında müstəqilliyini yenidən bərpa etdi. Lakin əsrin əvvəlində olduğu kimi, bu dəfə də erməni təcavüzü ilə üzləşərək torpaqlarının işğalı və müstəqilliyinin itirilməsi təhlükəsi ilə rastlaşdı. Tarixi hadisələr göstərir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşmiş, ölkəmizin müstəqil dövlət olmasını istəməyənlər “erməni məsələsi”ndən yetərincə istifadə etmişlər.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumuş və möhkəmləndirmişdir. Ulu Öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı illər müstəqilliyimizin möhkəmləndirilməsi, milli dövlətçilik ənənələrimizin qorunması və gücləndirilməsində müstəsna rol oynadı. Bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr etmiş Ümummilli Liderin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul olunmuş, üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikası Ali Məclisində qaldırılmış, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri götürülmüş, Sovet İttifaqının qorunub saxlanması ilə əlaqədar 1991-ci il martın 17-də keçirilən ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikası iştirak etməmişdir.

Ümummilli Liderimizin 1993-cü ildə xalqın təkidli tələbindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı isə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“1993-cü il, əslində, real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı... Azərbaycanda demokratik təsisatlar məhz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və möhkəmləndirilmişdir... 1993-2003-cü illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaqdır”.*** Ötən dövrdə Azərbaycan beynəlxalq hüququn subyekti kimi sübut etmişdir ki, o, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ləyaqətli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir.

Müstəqilliyimizin bizə verdiyi bəhrələr bu gün ölkəmizin bütün dünyada tanınmasına, qəbul olunmasına imkan vermişdir. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr Sərəncamında deyilir: *“Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir”.*

İndi müstəqil Azərbaycan dövləti mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir, öz milli, mədəni və multikultural dəyərləri ilə dünya ölkələri üçün əsl nümunəyə çevrilir.

2023-cü il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda keçirilən dördüncü beynəlxalq konfransda ölkə başçısı cənab İlham Əliyev deyib: ***“Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olmuşdur və bunu zamana, siyasi vəziyyətə baxmayaraq etmişdir. Sovet Azərbaycanı dönəmində 10 ildən artıq müddətdə Sovet Azərbaycanının rəhbəri olanda və hətta ideoloji əngəllər çərçivəsində O, Azərbaycan xalqının maraqlarını qoruyurdu və milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. Yetmişinci illərdə və səksəninci illərin əvvəlində onun tərəfindən atılmış bir çox addıma nəzər salsaq görərik ki, onlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdir”.***

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi xəttin uğurla davam etdirilməsi artıq Azərbaycanı regionun iqtisadi-siyasi, hərbi baxımdan ən güclü dövlətinə çevirmişdir. Elə bu gücün nəticəsidir ki, Azərbaycan 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün ərzində mənfur erməni ordusunu tamamilə darmadağın edərək illərdir işğalda saxlanılan torpaqlarını azad etdi. Əgər Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqilliyini parçalanmaqdan, məhv olmaqdan qoruyub xilas etdisə, cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa edərək bu müstəqilliyin tamlığını təmin etdi. Ölkə başçısı demişdir: ***“Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli Ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır”.*** Qələbənin digər möhtəşəmliyi isə ölkəmizin əsas əraziləri ilə Naxçıvan arasındakı əlaqələrin bərpası olacaqdır.

Ötən əsrin sonlarından blokadaya alınan Naxçıvan bütün çətinliklərə baxmayaraq, müstəqillik illərində inkişaf etmiş, blokadada inkişafın yeni nümunəsini yaratmışdır. Elə ötən ilin və 2023-cü ilin ilk 4 ayının yekunlarına diqqət yetirmək kifayətdir ki, bu dövrdə qazanılan uğurların həcmi və coğrafiyasını görək. Bu dövrdə ümumi daxili məhsul istehsalı dəfələrlə artmış, yeni emal və istehsal müəssisələri yaradılmış, bütün istehsal sahələrində əldə olunan nailiyyətlər böyük rəqəmlərlə ifadə edilmiş, əhalinin məşğulluğu yüksəldilmişdir. Tikinti-quruculuq işləri diqqət mərkəzində saxlanılmış, meliorasiya tədbirləri davam etdirilmişdir. Təbii ki, bütün bunlar müstəqilliyin bəhrələridir və qədim diyarımıza ölkə başçısı cənab İlham Əliyevin davamlı qayğısı hesabına Naxçıvan Muxtar Respublikasında qazanılan nailiyyətlər, əldə olunan uğurlar getdikcə artır.

***“Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də, belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir”,*** *– deyən görkəmli dövlət xadimi Heydər Əliyevin siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin bu qənaəti qalib və qüdrətli dövlət olan Azərbaycanın əbədi müstəqilliyinin qorunmasını hər birimizin məsuliyyətini daha da artırmaqla bu vəzifə vətəndaşlıq borcuna çevrilib.*

✍ Muxtar MƏMMƏDOV
**Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti**

# *“I Beynəlxalq İpək Yolu”* konfransı keçirilib



*Naxçıvan Dövlət Universiteti, Türkiyənin Qars Qafqaz Universiteti və İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun (İKSAD) birgə təşkilatçılığı ilə keçirilən konfransda 15 ölkədən 300-dən çox məruzəçi iştirak edib.*

Konfrans şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Elm təhsil ocağının rektoru, dosent Elbrus İsayev konfransdakı giriş nitqində Avropa ilə Asiyanı birləşdirən, keçdiyi ərazilərdə yaşayan xalqların həyatında, ölkəmizin iqtisadi və mədəni inkişafında oynadığı roldan danışıb. Qeyd edilib ki, bu yol ticarətin və bazar münasibətlərinin inkişafına xidmət etməklə yanaşı, həm də bir sıra ölkələr və xalqlar arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, İpək Yolunun bərpası Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Ulu Öndərin tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi haqqında imzaladığı 1998-ci il 7 iyun tarixli Sərəncamı Azərbaycanın dünya birliyi ölkələri ilə inteqrasiyasının gücləndirilməsində müstəsna rol oynayıb.

Rektor 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbəmiz sayəsində Naxçıvanla Azərbaycanın quru yolunun birləşməsinin əsas məsələlərdən olduğunu vurğulayıb. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının gələcək perspektivlərindən danışan rektor əlavə edib ki, bu tarixi nailiyyət Türk dünyası ilə Türkiyə arasında ticarət əlaqələrini genişləndirəcək.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu diqqətə çatdırıb ki, əsas başlanğıcını Çin ipəyini daha uzaq coğrafiyalarda yerləşən, həyatı, yaşam tərzi, sənayesi vaxtilə çox da zəngin olmayan Qərb ölkələrinə çatdırmaqdan götürən İpək Yolu zaman keçdikcə bir ticarət yolu olmaqla bərabər həm də Şərqdən Qərbə çox geniş bir ərazidə yaşayan xalqların mədəniyyətinin, mənəviyyatının, iqtisadiyyatının, həyat uğrunda mübarizəsinin yönəldici amilinə çevrildi. Böyük İpək Yolu insanlığın inkişaf tarixində əvəzsiz rol oynadı. Müasir dövrdə bu yolun bərpasının zəruriliyi daha çox gündəmdə olan bir məsələdir.

Konfransda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin, İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun prezidenti Mustafa Latif Emekin, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzovun, Atatürk Universitetinin professoru Hüseyn Yurtdaşın, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərlinin, Özbəkistanın İpək Yolu Araşdırma Akademiyasının sədri Azamat Akbarovun, onlayn formatda konfransa qoşulan Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevin, ABŞ-ın Purdue Universitetinin professoru Jamaluddin Husainin, Adana Çukurova Universitetinin professoru Hakkı Çiftçinin mövzu ətrafında çıxışları dinlənilib.

Sonda universitetin İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında konsert proqramı nümayiş olunub.

İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun prezidenti Mustafa Latif Emek konfransın təşkilatçılarına plaket təqdim edib.

Qeyd edək ki, konfrans ənənəvi və onlayn formatda olmaqla, 23 bölmədə davam edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Ümid-Dilucu körpüsü – sarsılmaz birliyin və əbədi qardaşlığın nişanəsi

***Bu il may ayının 28-də Araz çayı üzərindəki Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsindən 31 il keçir. 31 il öncə açılan bu körpü qardaşlığın təməlini özündə təcəssüm etdirir. Ölkəmizdə "Müstəqillik Günü" kimi qeyd edilən 28 may tarixi bizim üçün ikiqat bayramdır. 1992-ci il 28 may tarixi Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərindəki uzunluğu 288, eni 12 metr olan Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi ilə əlamətdardır. Bu tarix türk və Azərbaycan xalqlarını bir-birinə qovuşdurmaq, qəlbdən-qəlbə körpü salmaq və Naxçıvanın inkişafı baxımından özündə bir çox mətləbləri birləşdirir. Naxçıvanın bu mühüm nəqliyyat arteriyasına "Ümid", "Həsrət", "Vüsal" və ya "Könül" körpüsü də deyirlər. Bu yolla təkcə Türkiyə ilə Azərbaycan birləşmir, bu körpü həm də Türk dünyasının coğrafi bütünlüyünü təmin edir. Dünyanın başqa bir yerində mənəvi cəhətdən bu qədər dəyərli olan, istifadəyə verilməsi bayrama çevrilən ikinci bir körpü yoxdur.***



Təbii ki, hadisələrin əsl mahiyyəti onun öz zamanı çərçivəsində dəyərləndirilməsi nəticəsində ortaya çıxır. Bu baxımdan 31 il bundan öncə Naxçıvanda baş verənləri düzgün qiymətləndirmək üçün dövrün mənzərəsinə tarixi ekskurs etmək kifayətdir.

Naxçıvan o dövrdə tamamilə təklənmişdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın əsas ərazisi ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi böhran dərinləşmişdi. Azərbaycanın ozamankı iqtidarı ölkədaxili vəziyyətə nəzarət edə bilmirdi. Belə bir şəraitdə Naxçıvanın yeganə çıxış yolu qonşu ölkələrlə yeni əlaqələrin qurulması idi. O dövrdə Türkiyə ilə münasibətlərin bərpası istiqamətində Naxçıvanda görülən işlər, atılan addımlar Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyinə – bu gününə istiqamətlənmişdi. Məlumdur ki, sovet rejimi 70 il ərzində iki qardaş xalqın bir araya gəlməsinə mane olmaq üçün bütün ideoloji vasitələrini işə salmış, müxtəlif qadağalar tətbiq etmişdi. Zaman göstərdi ki, bütün növ məhdudiyyətlər və məhrumiyyətlər nəinki içimizdəki qardaşlıq duyğularını yox edə bilməmiş, əksinə, könüldən-könülə sarsılmaz tellər, qırılmaz bağlar yaranmışdı.

Ulu Öndər Heydər Əliyevin Naxçıvana rəhbərliyi dövründə Qars və Moskva müqavilələrini gündəmə gətirməklə münasibətlərimizin mahiyyətini ortaya qoydu. Böyük Atatürkün "Türk qapısı" adlandırdığı bu qədim yurd yerində "Bir millət, iki dövlət" şüarı reallığa çevrildi. 1991-ci ildə Türkiyə ilə Naxçıvan arasında müvəqqəti körpü açılmışdı, əsas körpünün inşası isə davam etdirilirdi. Ulu Öndər bu körpünün qısa vaxtda istifadəyə verilməsinə çalışırdı. Hətta bu məqsədlə Türkiyə hökumətinə xüsusi məktub da ünvanlanmışdı. Dahi rəhbərin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində Ankarada imzalanmış "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu"nda da bu məsələ öz əksini tapmışdı.

"Ümid" körpüsünün açılışı zamanı bütün dünyanın diqqəti Naxçıvana, Naxçıvan-Türkiyə sərhədində baş verənlərə yönəlmişdi. On minlərlə soydaşımızın iştirakı ilə keçirilən tarixi açılış mərasimindəki nitqində Ulu Öndər Heydər Əliyev xalqlarımız arasında uzun illərdən bəri davam edən həsrət və intizarın sona çatdığını bildirərək demişdir: ***"Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 ildir ki, bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu günü həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, bizim bu diləklərimiz həyata keçibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilibdir".***

Türkiyənin ozamankı Baş naziri Süleyman Dəmirəl 60 millət vəkili və 40-dan çox nüfuzlu kütləvi informasiya vasitələri nümayəndələri ilə (155 nəfərlik nümayəndə heyəti) Araz çayı üzərində qurulan "Ümid" körpüsünün açılışında iştirak etmək üçün Naxçıvana gəlmişdi. Süleyman Dəmirəl hava limanında bütün dünyanın diqqətini Türkiyə-Azərbaycan birliyinin sarsılmazlığına yönəldərək dedi: "Azərbaycan özünün ədalətli mübarizəsində tək deyildir. Biz dünyanın Azərbaycan haqqında həqiqətləri bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birlikdə olmuşdur və olacaq. Bu kədəri və sevinci birlikdə bölüşəcəyik". Süleyman Dəmirəl körpünün əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Bu körpü, sadəcə, Türkiyə və Azərbaycanı deyil, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları – hamısını bir-birinə bağlayacaqdır. Məhz onu dəyərli edən də budur".

O vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən Ulu Öndər Heydər Əliyev "Ümid" körpüsünün Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə, qardaş xalqların bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyini nəzərə alaraq 9 iyun 1992-ci il tarixli Qərarı ilə Sədərək-Dilucu körpüsünü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında rəsmi sərhəd, keçid qapısı elan etdi.

1992-ci ilin 28 may günü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Dili bir, dini bir, ruhu bir, kökü eyni tarixdən qaynaqlanan iki xalqın bir-birinə qovuşması tarixi hadisə idi. Hər iki xalq bu günü uzun illər gözləmişdi. Həmin gün körpü üstündə qucaqlaşan minlərlə insanın gözündən sevinc yaşları axırdı. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: ***"...Həmin gün uzun müddət davam edən həsrət sona çatdı, arzu və ümidlərimizin körpüsü açıldı".***

1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti kimi Naxçıvana səfərində Ümummilli Lider Heydər Əliyev körpünün açılması zərurətini xatırlayaraq demişdi: ***"Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərdə qəlbimdə qalan arzu idi...mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüsçüsü oldum. Biz dostumuz Süleyman Dəmirəl və Türkiyə hökumətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyəyə açıldı".***

Türkiyə-Azərbaycan, həmçinin Naxçıvan əlaqələrinin bugünkü səviyyəsi, Türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi baxımından da Sədərək-Dilucu körpüsünün xüsusi əhəmiyyəti vardır. Belə ki, bu körpü sabaha uzanan işıqlı yolun başlanğıcı, təməli oldu, eyni zamanda Türkiyənin şərq vilayətlərinin inkişafını şərtləndirdi.

Bu gün Türkiyə-Azərbaycan əlaqələrində, Türk dünyasının birlik və həmrəyliyində Naxçıvanın xüsusi yeri vardır. Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi, sammit çərçivəsində "Naxçıvan Bəyannaməsi"nin imzalanması bunun bir sübutu kimi mühüm tarixi hadisədir. 2010-cu ilin oktyabr ayında Azərbaycan-Türkiyə biznesforumunun Naxçıvanda təşkili iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafı üçün əlverişli imkanlar açmışdır. Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, ixrac potensialı, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq imkanları türk iş adamlarının Naxçıvana marağını artırır. Bu gün Türkiyə ilə Naxçıvan arasında bütün sahələrdə qarşılıqlı əlaqələr durmadan inkişaf edir və möhkəmlənir.

Muxtar respublikanın rəsmi şəxslərinin Türkiyəyə rəsmi səfərləri, bu zaman qardaş ölkənin dövlət və hökumət nümayəndələri, ordu rəhbərliyi və digər rəsmi şəxslərlə görüşlər əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Artıq bir neçə ildir ki, Türkiyə ilə Naxçıvan arasında müntəzəm təyyarə reysləri həyata keçirilir. Naxçıvan Muxtar Respublikasından Türkiyəyə Naxçıvan-İstanbul-Naxçıvan və Naxçıvan-İqdır-Naxçıvan reysi ilə işləyən gündəlik avtobus marşrutu da bu körpüdən keçir. Smeta dəyəri 5 milyon manat olan 11 aşırımlı bu körpü Türkiyənin Qafqaz və Orta Asiya ölkələrinə keçidini təmin edən bir qapıdır. Bütün bunlar bir daha göstərir ki, Naxçıvan Azərbaycanın Türkiyə ilə yeganə sərhəd bölgəsi olmaqla yanaşı, həm də ikitərəfli münasibətlərin inkişafına da öz töhfəsini verir.

Bu gün Türkiyə ilə Naxçıvan arasında bütün sahələrdə qarşılıqlı anlaşma şəraitində möhkəm əlaqələr mövcuddur. Son illərdə qarşılıqlı münasibətlərin daha da dərinləşməsi, birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl iş aparılır, müxtəlif sahələrdə razılıqlar əldə olunur. Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində Türkiyə Respublikasının payı və rolu ilbəil artır. Ötən illər ərzində Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi vasitəsilə dünyanın 30-dan çox ölkəsi ilə ticarət əlaqəsi yaradılmışdır. Bölgənin keçirdiyi iqtisadi çətinliklərin və nəqliyyat blokadasının ləğvində körpünün rolu əvəzedilməz və danılmazdır.

Naxçıvanın xarici ticarət dövriyyəsində əsas yeri Türkiyə tutur. Şərqlə Qərbin qovşağında, Böyük İpək Yolunun üzərində yerləşən bu qədim diyarın sürətli sosial-iqtisadi inkişafı bölgənin turizm, eləcə də tranzit imkanlarını ildən-ilə artırır. Bütün bunlar isə onu deməyə əsas verir ki, 31 ildir, ümidlərin və arzuların körpüsü olaraq bir millətin iki dövlətini birləşdirən Sədərək-Dilucu körpüsü bundan sonra da iki qardaş xalqın rifah halının yaxşılaşmasına, sarsılmaz birliyinə və bütövlüyünə xidmət edəcəkdir.

Sədərək-Dilucu körpüsünün istifadəyə verildiyi gün Naxçıvanda əsl bayram sevinci yaşanırdı. Naxçıvanlılar bu tarixi unutmur... Türkiyə-Azərbaycan-Naxçıvan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində görülmüş işlər daim ehtiramla xatırlanır.

Azərbaycanla, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanla Türkiyə Respublikası arasında əlaqələrimizin genişlənməsində Sədərək-Dilucu körpüsünün rolu və əhəmiyyəti getdikcə daha da artır. Bu körpü həm də qardaşlığımızın və dostluğumuzun əbədi nişanəsidir. 31 illik fəaliyyəti dövründə Sədərək-Dilucu körpüsü xalqlarımızı bir-birinə daha sıx birləşdirmiş, hər iki tərəfdən insanların həyatının yaxşılaşmasına xidmət göstərmişdir.

*Bu gün Türkiyə-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edərək durmadan genişlənir, müxtəlif sahələrlə bağlı əməkdaşlıq və birgə fəaliyyət haqqında sazişlər imzalanır. Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin daha da genişləndirilməsi və inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan uzaqgörən siyasət bu gün də qətiyyətlə və uğurla davam etdirilməkdədir. Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir, daimidir!*

**Yaşar RƏHİMOV**
**tarix üzrə fəlsəfə doktoru**

# 28 May – Müstəqillik Günü ilə bağlı tədbirlər keçirilib

AMEA Naxçıvan Bölməsində keçirilən tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis, Gəncə və Bakı dövrləri haqqında qısa məlumat verib. Diqqətə çatdırılıb ki, 23 aylıq fəaliyyət dövründə olduqca mühüm tarixi qərarlar qəbul olunub, istər daxili, istərsə də xarici siyasətdə yeni yaranmış bir cümhuriyyət üçün müstəsna əhəmiyyətli irəliləyişlər əldə edilib.



Vurğulanıb ki, 70 illik sovet əsarəti dövründə tarixi keçmişimiz unutdurulmağa çalışılsa da, dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, hökumətdə təmsil olunan tarixi şəxsiyyətlər və başqa aktual məsələlərlə bağlı əhatəli tədqiqatlar aparılıb. Ölkə başçısının imzaladığı müvafiq sərəncamlarla Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ölkəmizdə geniş şəkildə qeyd edilib.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, dosent Asəf Orucov, həmin İnstitutun Yeni və ən yeni tarix şöbəsinin kiçik elmi işçisi Nilufər Ağayeva çıxışlarında həmin dövrdə qəbul edilən İstiqlal Bəyannaməsinin Şərqdə ilk demokratik respublikanın yaradılmasının rəsmi bəyanı olduğunu, bütün vətəndaşların hüquq bərabərliyinin təmin edildiyini diqqətə çatdırıblar.

***

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılan və xalqımızın dövlətçilik tarixində misilsiz rolu olan ilk demokratik, parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə məlumat verib. Elbrus İsayev Prezident cənab İlham Əliyevin ölkəmizi regionda söz, dünyada nüfuz sahibinə çevirdiyini, Vətən müharibəsində müstəqillik tarixinin ən parlaq Qələbəsini xalqımıza bəxş etdiyini deyib.

Digər çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.

**Xəbərlər şöbəsi**

# *"Heydər Əliyev və Azərbaycan mədəniyyəti"* mövzusunda elmi-nəzəri konfrans

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyində keçirilən "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda elmi-nəzəri konfransın iştirakçıları əvvəlcə Ulu Öndərin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, dahi liderə ehtiramlarını bildiriblər.



Sonra muzeydə davam edən elmi-nəzəri konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Həsən Kərimov Ulu Öndərin anadan olmasının 100 illik yubileyinin böyük qürur hissi ilə keçirilməsini xalqımızın ictimai-siyasi həyatında böyük əhəmiyyətə malik mühüm hadisə olaraq dəyərləndirib, əsası Ulu Öndər tərəfindən qoyulan dövlət mədəniyyət siyasəti barədə geniş məruzə edib.

Vurğulanıb ki, mədəniyyətimizin himayədarı olmaq missiyası bu gün dahi rəhbərin bütün sahələrdə layiqli davamçısı Prezident cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın qayğısı sayəsində uğurla davam etdirilir, mədəniyyətin bütün sahələrinin inkişaf və yeniləşməsinə yönəlmiş Dövlət proqramları qəbul edilir.

Konfransda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Milli Məclisin Mədəniyyət Komitəsinin üzvü Ülviyyə Həmzəyeva "Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin xilaskarıdır", Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı aparatının şöbə müdiri Rail Tağızadə "Heydər Əliyev və Yeni Azərbaycan Partiyası", Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev "Heydər Əliyev və ədəbiyyatımız", Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov "Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərova "Milli mədəniyyətimizin hamisi – Ulu Öndər Heydər Əliyev" mövzularında çıxış ediblər.

Sonda "Heydər Əliyev. Azərbaycan mədəniyyətinin hamisi" filmi nümayiş olunub, iştirakçılar muzeyin ekspozisiyasına baxıblar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Vətəndaşlar qəbul edilib

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova Babək rayon Nehrəm qəsəbəsindən olan vətəndaşları qəbul edib. Qəbula gələn vətəndaşların müraciəti əkin sahələrinin suvarma suyuna tələbatının ödənilməsində yaranan çətinliklərlə bağlı olub.



Qaldırılan problemin yerində hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi məqsədilə nazirlikdə yaradılmış monitorinq qrupuna müvafiq tapşırıqlar verilib və qrup Nehrəm qəsəbəsinə ezam olunub.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Bakı şəhərində fəaliyyət göstərən "Məlhəm" Beynəlxalq Hospitalın birgə təşkilatçılığı ilə Naxçıvan Diaqnostika Müalicə Mərkəzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Sevgi ən böyük məlhəmdir!" şüarı altında tibbi aksiya keçirilir. Biz də mərkəzdə tədbirin təşkilatçıları, həkimlər, həmçinin müayinə və müalicə məqsədilə bu səhiyyə müəssisəsinə üz tutan insanlarla həmsöhbət olduq.*

## Humanitar tibbi aksiyaların keçirilməsi ənənə halını alıb



***Hospitalın direktoru Sevda Əlizadə*** bildirdi ki, dahi rəhbərin doğulub boya-başa çatdığı qədim Naxçıvan torpağında həm Onun 100 illiyi, həm də 28 May – Müstəqillik Günü münasibətilə 25-27 may 2023-cü il tarixlərdə baş tutan aksiya çərçivəsində "Məlhəm" Beynəlxalq Hospitalında çalışan 10 yüksəkixtisaslı həkimdən ibarət heyət muxtar respublika əhalisinə müxtəlif ixtisaslar üzrə ödənişsiz tibbi xidmət göstərir. Sevda xanımın sözlərinə görə, bu, hospitalın Naxçıvanda təşkil etdiyi ilk humanitar aksiyadır. Bu ilin sonuna kimi muxtar respublikanın rayonlarında da aksiyalarımızı davam etdirəcəyik. Burada yaşayan və paytaxta getmək imkanı olmayan xəstələri müayinə edən həkimlərimiz alınan nəticələrə uyğun lazımi tövsiyələr verirlər. Sevda xanım onu da bildirdi ki, Naxçıvanın gəzməli və görməli yerləri – Əshabi-kəhf ziyarətgahı və Batabat yaylağı, buradakı Zorbulaq həkimlərdə xoş təəssüratlar yaradıb.

***Diaqnostika Müalicə Mərkəzinin direktor müavini Vüqar Babayev:*** – Xəstəliklərin müayinə və müalicəsində daim yeni metodların öyrənilməsi və tətbiq edilməsi hər bir tibb işçisinin gündəlik fəaliyyətinin tərkib hissəsi hesab olunur. Bu baxımdan da belə tədbirlərin keçirilməsi çox əhəmiyyətlidir. Bu tipli tədbirlər müayinə və müalicəni daha əlçatan etməklə yanaşı, muxtar respublikadan kənarda öz dərdinə əlac axtaran insanların da sayını azaldır. Dəfələrlə muxtar respublikanın müxtəlif səhiyyə ocaqlarında humanitar aksiyalar olub, əhalinin müalicə və müayinəsini həyata keçirib. Mərkəzimiz bütün imkanları ilə müayinə və müalicə aparan həkimlərin ixtiyarındadır.

***Azərbaycan Tibb Universitetinin dosenti Rəşad Məmmədov:*** – Dövlət başçısının sosialyönümlü siyasətinin nəticəsi olaraq Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi uğurla



həyata keçirilir. Humanitar tibbi aksiyaları da görülən bu işlərin tərkib hissəsi kimi dəyərləndiririk. Burada olmaq, insanların sağlamlıqlarına töhfəmizi vermək qürurvericidir.

***Tibb üzrə fəlsəfə doktoru, oftalmoloq Leyla Qəhrəmanova*** deyir ki, müayinə apardığı oftalmologiya kabinəsində müasir avadanlıqların olması bu sahə üzrə çalışan həkimlərin işlərini xeyli asanlaşdırır. Bu, xəstələrə düzgün diaqnoz qoymağa imkan verir.

Leyla həkimin bir az öncə müayinə etdiyi Naxçıvan şəhər sakini ***Zeynəb Əliyeva*** söhbətə qoşularaq bildirir ki, bu gün buraya gözlərimi müayinə etdirmək üçün üz tutmuşdum, gələndə Bakı şəhərindən də həkimlərin gəldiyini eşitdim. Leyla həkim gözlərimi müayinə etdi. Dərmanlar yazdı, əməliyyata ehtiyacım olduğunu bildirdi. Allah bu şəraiti yaradanlardan razı olsun. Dövlətimiz var olsun!

Bildirək ki, Diaqnostika Müalicə Mərkəzinin həkimləri də həmişə olduğu kimi, bu gün də insanların sağlamlığının qayğısına qalır, əllərindən gələni edirlər. ***Məhəmməd Vəliyev*** gənc olmasına baxmayaraq, təkcə muxtar respublikada deyil, diyarımızdan kənarda da tanınan oftalmoloqlardandır. O, təkcə Naxçıvanda keçirilən humanitar aksiyalarda insanlara yardım etmir. Bir neçə beynəlxalq humanitar aksiyanın iştirakçısı kimi dünyanın yoxsulluqdan əziyyət çəkən ölkələrinə gedir. Gənc həkim deyir ki, humanitar aksiyalarda həkimlər arasında təcrübə mübadiləsi imkanı yaranır. Ona görə də belə tədbirləri dəstəkləyir, xəstələrə yardımçı olmaq üçün əllərindən gələni edirlər.

Növbəti müsahibim xəstəxananın ***həkim-cərrahı Nazim İbrahimov***dur. O bildirdi ki, tibbi müayinələr zamanı həkimlər tərəfindən profilaktik baxış keçirilir, sağlamlığa dair məlumatlar və xəstəliklərə səbəb olan risk faktorları ilə bağlı tövsiyələr verilir. Xəstəlik aşkar olunduğu halda pasiyentlər yerində müalicəyə cəlb edilirlər.

Dünyada elə insanlar var ki, onlar əbədiyyətə qovuşduqdan sonra da əməlləri yaşayır. Dahi rəhbərin ömrünü həsr etdiyi, canından çox sevdiyi Azərbaycan bu gün hər sahədə Onun arzu etdiyi kimi inkişaf edir, gözəlləşir. Vətəninin ən dəyərli sərvəti olan vətəndaşlarının qayğısına qalınır. Bugünkü aksiya da Onun adı ilə bağlıdır. Bu gün burada sağlamlığına qovuşmağa gələn hər bir vətəndaş belə qayğının Ulu Öndərin müəyyənləşdirdiyi siyasətə ehtiramın ifadəsi olduğunu dərindən dərk edir.

**✍ Ramiyyə ƏKBƏROVA**

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd edilib



*1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar olaraq Şahbuz Rayonunda "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirilib.*

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül qoyulub, əziz xatirəsi ehtiramla yad edilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Tədbirdə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikada uşaqların həyata keçirilən dövlət uşaq siyasətindən, uşaqlara göstərilən qayğıdan ətraflı danışıblar.

Daha sonra Şahbuz rayonu üzrə təhsil sahəsində ən yüksək göstəriciyə nail olan Əli Məmmədli çıxış edərək təhsilə göstərilən qayğıya görə dövlətimizə bütün şagirdlər adından minnətdarlığını bildirib.

Tədbirdə Şahbuz rayonu üzrə 2022-2023-cü tədris ilində müxtəlif sahələrdə nailiyyət qazanmış uşaqlar təşkilatçılar tərəfindən hədiyyə və Fəxri fərmanla təltif olunublar. Eyni zamanda şəhid ailələrinin uşaqlarına hədiyyə təqdim edilib. Sonra uşaq musiqi və tam orta məktəblərin şagirdlərinin, eləcə də uşaq bağçalarının balaca fidanlarının ifasında Ulu Öndərə həsr edilmiş şeir, mahnı, eləcə də rəqs nömrələri nümayiş olunub, uşaqların rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Tanınmış professor, pedaqoq və şairə ilə görüş



AMEA Naxçıvan Bölməsində filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, şairə Mahirə Hüseynova ilə görüş olub.

Bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxışında qeyd edib ki, Mahirə Hüseynova tədqiqatçı-alim, gözəl pedaqoq, istedadlı şairə, vətənpərvər ziyalıdır. Çoxsaylı monoqrafiya, kitab və məqalələrin müəllifi olan Mahirə Hüseynova yaradıcılığında mənəvi saflıq, vətənpərvərlik, anaya məhəbbət əsas yer tutur. Onun yaradıcılığında diqqəti çəkən məqamlardan biri də Ümummilli Lider Heydər Əliyevə həsr etdiyi "Ulu Öndərimizin natiqlik məharəti", "Ulu Öndərimizin natiqlik məharəti xalqımızın ən böyük sərvətidir", "Missiya" və bu kimi əsərləridir. Bu əsərlərində görkəmli dövlət xadiminin həyatı və misilsiz xidmətləri öz əksini tapıb.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, Əbülfəz Quliyev, AMEA Naxçıvan Bölməsinin dosentləri Ramiz Qasımov, Zülfiyyə İsmayıl çıxışlarında Mahirə Hüseynovanın yaradıcılığı haqqında geniş məlumat verib. Qeyd olunub ki, onun yaradıcılığı, bədii-estetik cəhətdən mükəmməl əsərləri bir çox bəstəkarlarımızın da diqqətini cəlb edib və əsərlərinə mahnılar bəstələnib.

Sonda şairə Mahirə Hüseynova yaradıcılığına göstərilən diqqətə görə minnətdarlığını bildirib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## İmmunlaşdırma həftəsində 383 uşaq peyvəndə cəlb olunub



Muxtar respublikamızda uşaqların sağlamlığının qorunması, onların hər hansı bir xəstəlik və ya infeksiyalara yoluxmasının qarşısının alınması istiqamətində mühüm işlər görülür, bütün uşaqlar həkim nəzarəti ilə peyvənd təqviminə əsasən vaxtlı-vaxtında peyvəndə cəlb olunurlar. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələri tərəfindən mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilir, immunlaşmanın əhəmiyyəti barədə valideynlərə ətraflı məlumatlar verilir.

Tədbirlərin davamı olaraq, bu il də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq əmri ilə 24-29 aprel 2023-cü il tarixlərdə "İmmunlaşdırma həftəsi"nə start verilmişdir. Əmrə əsaslanaraq Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında aprel ayının 24-dən kütləvi profilaktik peyvəndlərin aparılmasına başlanılmışdır. Belə ki, bu müddət ərzində muxtar respublikada 383 nəfər peyvənddən yayınmış uşaq peyvəndə cəlb edilmişdir ki, onlardan da 132-si 0-1 yaş, 127-si 1-2 yaş, 57-si 3-6 yaş, 67-si isə 6 yaşdan yuxarı olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## ECAR layihəsi çərçivəsində xarici tərəfdaşların iştirakı ilə növbəti görüş keçirilib



25 may 2023-cü il tarixdə Bakı Biznes Universitetində "Azərbaycanda Rektorlar Konfransının yaradılması" adlı Erasmus+ layihəsi çərçivəsində xarici tərəfdaşların iştirakı ilə 6-cı idarəetmə görüşü keçirilib.

Tədbirdə layihə konsorsiumunun üzvü olan 15 Azərbaycan universitetinin məsul şəxsləri və Avropa tərəfdaşları iştirak ediblər. "Naxçıvan" Universiteti isə tədbirdə layihə meneceri Ruqiyyə Kərimova təmsil edib.

Layihə koordinatoru Gülşən Bayramova mövcud layihə fəaliyyətləri ilə bağlı qısa təqdimatla çıxış edib.

Sonra elmi işlər, tələbə və məzunlarla iş üzrə komitə sədrlərinin hesabatı dinlənilib, eyni zamanda layihənin keyfiyyət təminatı və monitorinqi ilə bağlı xarici ekspert George Dafoulasın sualları iştirakçılar tərəfindən cavablandırılıb.

Tədbirin sonunda layihənin WP4 və WP5 iş paketlərinə uyğun olaraq nəzərdə tutulan fəaliyyətlər, layihənin icrası ilə bağlı təşkilati və maliyyə məsələləri, layihə fəaliyyətinin ictimailəşdirilməsi tədbirləri haqqında da geniş müzakirələr aparılıb. Yekunda menecerlər tərəfindən növbəti mərhələlərdə yerinə yetiriləcək işlər dəqiqləşdirilib və bir sıra tapşırıqlar qarşıya qoyulub.

Qeyd edək ki, bu layihənin məqsədi milli inkişaf strategiyalarına uyğun olaraq rektorlar konfransı vasitəsilə universitetlər arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirməkdir. Konfrans yerli universitetlərin təhsil proqramlarının beynəlmiləlləşməsinə və universitetlərin rəqabət qabiliyyətinin yüksəldilməsinə əsaslı dəstək olacaq.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***


## Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1. Xarici tələbələr üzrə dekanlıq

***Kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Ümumi tarix
2. Elektroenergetika mühəndisliyi
3. Elektronika və informasiya texnologiyaları
4. İnformatika
5. Rus və Şərq dilləri
6. İngilis dili və metodika
7. İngilis dili və tərcümə
8. Çağırışaqədərki hazırlıq və mülki müdafiə
9. Coğrafiya

***Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün***

1. Biologiya kafedrası – baş müəllim – 2 yer
2. Azərbaycan dili və ədəbiyyatı kafedrası – professor – 1 yer, dosent – 3 yer
3. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası – dosent – 1 yer
4. Ümumi tarix kafedrası – dosent – 1 yer
5. Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer (0,5 ştat)
6. Meliorasiya və ekologiya mühəndisliyi kafedrası – müəllim – 1 yer, baş müəllim – 1 yer
7. İnformatika kafedrası – baş müəllim – 1 yer
8. İngilis dili və tərcümə kafedrası – dosent – 1 yer (0,5 ştat)
9. Rus və Şərq dilləri kafedrası – baş müəllim – 1 yer
10. Musiqi təlimi kafedrası – baş müəllim – 1 yer, baş müəllim – 1 yer (0,5 ştat), müəllim – 1 yer
11. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası – dosent – 1 yer (0,5 ştat), baş müəllim – 2 yer
12. Xalq çalğı alətləri kafedrası– dosent – 1 yer
13. Təsviri incəsənət kafedrası – professor – 1 yer
14. Fortepiano kafedrası – dosent – 2 yer, baş müəllim – 1 yer
15. Orkestr alətləri və dirijorluq kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
16. Pedaqogika və psixologiya kafedrası – dosent – 1 yer (0,5 ştat)
17. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası – baş müəllim – 1 yer
18. Ümumi təbabət və tibbi kliniki fənlər kafedrası – dosent – 1 yer (0,5 ştat)
19. Stomatologiya kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
20. Fəlsəfə və sosial iş kafedrası – baş müəllim – 1 yer

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***



### *İtmişdir*

Sədərək rayonu, Dəmirçi kənd sakini Həsənova Məhsəti İmran qızının adına olan JN-468$^{A}$ inventar nömrəli, 10200088 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini Məmmədov Fəxrəddin Məmməd oğlunun adına olan JN-1204 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Püsyan kənd sakini Abdullayev Abbas Lələ oğlunun adına verilmiş JN-400$^{A}$ nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Püsyan kənd sakini Yusifov Qurban Cəfərsadiq oğluna məxsus JN-0342$^{A}$ nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Kərimbəyli kənd sakini Seyidova Qəmər Heydər qızına məxsus JN-005$^{A}$ nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Bənəniyar kənd sakini Nəsirov Kəsir Hüseynxan oğlunun adına olan JN-31 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 355